# POLİTOLOGİYA

UOT.321.7

## AZƏRBAYCAN XALQININ FƏLSƏFİ-SİYASİ FİKRİNDƏ SİYASƏTİN OPTİMALLIĞI PROBLEMİ

**X.S.İBRAHİMOVA**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***Xayala443@hotmail.com***

*Siyasətin formalaşması və həyata keçirilməsi həm ümumi, həm də spesifik milli faktorlarla şərtlənir. Bu baxımdan xalqımızın fəlsəfi-siyasi fikrində siyasət və onun optimallığı probleminə dair yanaşmaların araşdırılması Milli müstəqillik şəraitində Azərbaycan üçün xüsusi aktuallıq kəsb edir. Məqalədə siyasət və onun səmərəliliyi haqqında Azərbaycan fəlsəfi-siyasi fikri tarixində irəli sürülən müddəa və təlimlər təhlil olunur. Müəllif qədim dövrün mühüm abidəsi olan "Avesta"da, orta əsr Azərbaycan mütəfəkkirlərindən N.Gəncəvinin, N.Tusinin, M.Füzulinin, o cümlədən, XVIII-XIX əsrlərin görkəmli maarifçiləri M.Kazımbəyin və M.Axundovun siyasətin səmərəliliyinə dair fikirlərini nəzərdən keçirərək onlara münasibət göstərir.*

**Açar sözlər**: siyasət, siyasətin səmərəliliyi və optimallığı, dövlət, hakimiyyət, demokratiya, milli mentalitet

Siyasət bütün dünya xalqlarının ictimai həyatını əhatə edən, dəyişdirən və istiqamətləndirən qüdrətli fenomendir və buna görə də onu yalnız məcmu halında, beynəlxalq miqyaslı, dünya hadisəsi kimi götürməklə adekvat başa düşmək olar. Siyasətin formalaşması və həyata keçirilməsi həm milli, həm də ümumi səbəblərə malikdir. Onun fərdi, milli ölçüdə anlaşılması, əslində bütöv tamın, yəni dünya miqyaslı siyasətin müəyyən bir hissəsini təşkil edir.

Siyasətin optimallığı məsələsi onun elmi ədəbiyyatda obyektiv və subyektiv amilləri ilə əlaqədə nəzərdən keçirilir. Obyektiv amil dedikdə araşdırılan konkret zaman kəsiyində siyasət məkanında ictimai prosesin nəticəsi kimi formalaşan əslində nə insanlardan, nə də siyasi liderlərdən asılı olmayan şərtlər məcmusu başa düşülür. Subyektiv amillər adı altında isə siyasət subyektlərinin intellektual səviyyəsi, peşə və ümumi mədəni keyfiyyətləri, onların həyat və təfəkkür oriyentirləri, hadisələrə yanaşma metodları və qiymətlən-

dirmə meyarları, siyasi fəaliyyətə qoşularkən qarşılarına qoyduqları məqsədlərin saflıq dərəcəsi və s. nəzərdə tutulur (11, 314-320).

Optimal siyasətin həyata keçirilməsi, onun subyektlərindən yüksək siyasi məharət tələb edir. Siyasi məharət – mövcud imkanlardan yüksək səviyyədə istifadə etmək, nəzəri biliklər, məntiqi mülahizələr, fərziyə və intuisiya əsasında düzgün qərar qəbul etmək bacarığı, yaradıcı cəsarətdir deməkdir.

Siyasətin optimallığı probleminin tədqiqi siyasi fikrin kortəbii inamdan elmi məsələyədək keçdiyi uzun inkişaf yolunun, onun əsas keyfiyyət mərhələlərinin izlənilməsinə imkan verir. Bu problemin öyrənilməsi siyasi-praktiki, ideoloji, həmçinin sosial-mədəni baxımdan xüsusilə mühüm əhəmiyyət kəsb edir, insanların dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

Siyasi mütəfəkkirlərin siyasət və onun optimallığı problemi ilə bağlı fikirləri, irəli sürdükləri müddəaların təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, bu məsələləri dərindən öyrənmədən siyasi sistemin inkişafının aktual vəzifələri və perspektivlərinin, onun sosial münasibətlərinin keyfiyyətcə təkmilləşdirilməsində rolunun müəyyənləşdirilməsi, həmçinin cəmiyyətin bütün sahələrində qanunun aliliyinin təmin edilməsi qeyri-mümkündür. Çünki bunsuz xalq hakimiyyətinin inkişafı əsasında siyasi qayda-qanunun qorunub saxlanılması mexanizmini gücləndirmək iqtidarında olan irimiqyaslı, mühüm siyasi islahatların həyata keçirilməsinin elmi platformasının işlənilməsi çətin olardı.

Azərbaycanda siyasi fikir qədim dövrdə müxtəlif miflərin və əfsanələrin əsasında yaranmışdır. Bu miflər və əfsanələrdə Azərbaycan xalqının ulu babalarının bəzi siyasət məsələlərinə dair baxışları öz ifadəsini tapmış və bu qədim fikirlər onun təfəkküründə dərin iz salmışdır. Azərbaycanda dövlət və hakimiyyət ideologiyası qismində irəli sürülmüş mənəvi-əxlaqi, sosial, iqtisadi və siyasi baxışlar daha çox ilk dinlərdən biri olan zərdüştilikdə ifadə olunmuşdur.

Qədim şərqin və Azərbaycanın siyasi fikrinin ilk abidəsi «Avesta» olmuşdur. Burada siyasət, siyasi və ictimai fikir məsələləri, qədim hüququn vacib problemləri ifadə olunmuşdur. İnsan şüurunun inkişafı yollarının uzun müddət axtarışı nəticəsində ilk dəfə olaraq «Avesta» adı altında yazılı qanunlar yaradılmışdır. «Avesta» qədim dövrdə və erkən feodalizm dövründə Azərbaycandakı fəlsəfi-siyasi və hüquqi cərəyanların, təlimlərin öyrənilməsi üçün başlıca mənbədir. «Avesta»nın yüksək elmi dəyəri bundadır ki, o Azərbaycan siyasi fikrinin və qədim hüququn ümumi problemləri ilə bilavasitə bağlıdır və bu biliklərin özünəməxsus ensiklopediyası kimi çıxış edir. Digər tərəfdən, «Avesta» xalqın dövlətçilik müdrikliyinin ifadəsidir (13, 21).

«Avesta»ya görə, dövlət göylərin padşahlığının yerdə reallaşmasıdır. Burada dövlətə xas olan bəzi funksiyaları da görmək olar. Onlar aşağıdakılardır: malik olmaq, nəzarət etmək, idarə etmək, cəzalandırmaq, müdafiə etmək, həmçinin qayğı göstərmək, yedizdirmək, sığınacaq vermək, əhalinin artımını tənzimləmək və nəzarətdə saxlamaq, ölkənin müdafiəsi üçün silahlı qüvvələrə malik olmaq, müqavilələr bağlamaq və s.

«Avesta»da «dövlət» anlayışı hər bir xarici nəzarətdən daxili müstəqillik, sərbəstlik və suverenlik, ayrıca bir ərazi və zərdüşt dininin ardıcılları üzərində ayrılmaz hökmranlıq etmək, onların səylərini şər qüvvələrlə mübarizəyə, gələcək cəmiyyətin yaradılmasına istiqamətləndirmək imkanı kimi nəzərdə tutulur. «Avesta»ya görə, dövlətin əsas funksiyalarından birini kütlələri səfərbər edən, xalqın vahidliyini möhkəmləndirən müqəddəs odu qoruyub saxlamaqdır. «Avesta» Aşinin qorunmasını zəruri hesab edir, çünki xalqın rifah halı, idarəetmənin ədalətli obrazı, həmçinin hər bir insanın varlı olması və şəxsi həyatı bundan asılıdır (13, 27**)**.

«Avesta»da nəzərdə tutulan bir sıra digər tədbirlər dövlətin iqtisadi qüdrətinin möhkəmlənməsinə yönəlmişdir ki, bunlarsız düşmənə qalib gəlmək olmazdı.

«Avesta»da hökmdarlara, dövlət başçılarına xüsusi yer ayrılır. Belə ki, burada dövlət başçısı eyni zamanda ali və dini rəhbərdir, o, xalqın fikirlərini və istəklərini düzgün məcraya yönəldə bilən, xalq arasında zərdüştlik dini təlimini yayan ideoloq olmalıdır.

Hakimiyyətin özü sakral hesab olunurdu və onun mənşəyi Xeyir və Şərin əbədi mübarizəsi haqqında rəvayətə əsaslanan dini ənənə ilə əlaqələndirilir və müqəddəsləşdirilirdi.

Fəlsəfədə və dində çox vaxt siyasətin əsaslandırılması, əxlaqda isə ona bəraət qazandırmaq cəhdləri olmuşdur. Məlumdur ki, orta əsrlərdə həm Qərbdə, həm də Şərqdə dini dünyagörüşü hakim olmuşdur. Dövlətə, hüquqa dini münasibət bir çox əsrlər mühafizəkar və mürtəce siyasi proqramların söykənəcəyi idi. VII əsrin ortalarından başlayaraq Azərbaycanda tədricən İslam dini hakim dinə çevrilmişdir. İslam Azərbaycan torpağına yeni, bütün mümkün ideyaları (hənifi, şəfiyi, maliki və s.) və müsəlman hüququnu gətirmişdir. Bu istiqamətlər müxtəlif yollarla, lakin dinin üstünlüyü mövqeyindən müxtəlif hüquqi situasiyaların və hakimiyyət, dövlət və siyasətin mənşəyi konsepsiyasının izahını verirlər (10, 39**)**.

Orta əsrlər Şərqində demokratiya və azadfikirlilik, cəmiyyətin ədalətli idarə edilməsi ideyaları geniş yer tuturdu. Bu baxımdan Azərbaycan siyasi fikrinin tanınmış nümayəndəsi Nəsirəddin Tusinin «Əxlaqi Nasiri» və s. əsərlərdə ədalətli dövlət və cəmiyyət problemlərinin qoyulması xüsusilə diqqəti cəlb edir. Görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin «Xəmsə»sində də ədalətli cəmiyyət obrazının yaradılması insan hüquqları problemi prizmasından olduqca əhəmiyyətlidir.

Adətən müsəlman mütəfəkkirlərinin sosial ədalət probleminə və ictimai təşkiledilmənin formalarına müraciətlərinin nəzəri bünövrəsini araşdıran bu tədqiqatçılar onun kökündə antik yunanların irsinin durduğunu göstərirlər. VIII əsrdən başlayaraq İslamda ictimai həyatın reqlamentləşdirilməsi və nizamlanmasına müstəsna əhəmiyyət verilir. Məsələn, təhlil göstərir ki, tarixi Azərbaycan mütəfəkkirlərinin bir çoxu ideallardan uzaq olmuş, onların başlıca səyləri ədalətli sosial quruluş nəzəriyyələrinin yaradılmasına yönəlmişdir (10, 37).

Bu baxımdan ideal cəmiyyətdə dövlət quruluşu ideyaları xüsusi maraq doğurur. Belə cəmiyyətə müharibələr yaddır, burada sülh və dostluq çiçəklənir, qoşunlar və silahlanma yoxdur. Azərbaycan mütəfəkkirlərinin baxışlarının mərkəzində müdrik, xeyirxah, cəsarətli insan durur, Nizami Gəncəvinin sözləri ilə desək, onun üçün ən əsası "sağlamlıq, təhlükəsizlik və təminatdır". Böyük şair öz «Xəmsə»sində belə bir ədalətli cəmiyyətin layihəsini yaradır. O, burada özünün təliminin məqsədini ətraflı ifadə edərək nə ağaların, nə qulluqçuların, nə istismar edənlərin, nə də istismar olunanların olduğu harmonik cəmiyyət obrazı yaradır. Bu cəmiyyətdə siniflər və düşmənçilik yoxdur, insanlar yalnız qocaldıqdan sonra ölürdülər. Mütəfəkkir bu sosial idealın həyata keçirilməsini gələcək nəsillərə vəsiyyət edirdi (4).

İnsanlarda, xüsusilə dövlət başçılarında daim daha çox müsbət keyfiyyətləri görmək istəyən filosof heç şübhəsiz ki, İsgəndəri dünya tarixinin ən ideal şəxsiyyəti kimi yaratmaya bilməzdi (3, 46). Araşdırılan mövzu kontekstində məşhur Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusinin əsərləri, xüsusilə də "Əxlaqi Nasiri" əsəri xüsusi maraq doğurur. N.Tusinin ideyalarına görə dövlət beynin səylərinin nəticəsi kimi çıxış edir və o zaman yaranır ki, bir-biri ilə düşmən olan insanlar affektlə idarə olunan təbii vəziyyətin faydasızlıqlarını görərək, öz üzərinə onların müdafiəsi, təhlükəsizliyi və s. kimi fərdi təbii hüquqlarının reallaşdırılmasını götürən təsisatın yaradılması üçün könüllü birləşirlər. Qeyd etmək lazımdır ki, N.Tusidə "dövlət" və "cəmiyyət" anlayışları identikdir. O, dövlət-cəmiyyətin strukturunu işləyib və onun fikrincə, dövlət insanın fəal iştirakına, insan isə – dövlətin dəstəyinə ehtiyac duyur (2, 34**)**.

N.Tusi hesab edirdi ki, ideal dövlət "insanların elə xüsusi birliyidir ki, burada onların birgə səyləri faydalı işlərin görülməsinə, şər hərəkətlərin aradan qaldırılmasına imkan verməyə yönəlir. Bu insanlar arasında baxışlarda və əməkdə ümumilik mövcuddur. Burada insanların gördükləri işlər müdriklik qanunları ilə yaxşı düşünülmüş əsasda və gözəl nizamlanmış, təmiz qarşılıqlı münasibətlər zəminində həyata keçirilir. Burada fayda və hər bir insanın vəziyyəti nəzərə alınır, hər kəsin əməyinin son məqsədi vahiddir, hər bir insanın arzu və istəkləri üst-üstə düşür" (13, 34**)**.

Belə dövlətdə N.Tusi dövlət və dinin vəhdəti, dünyəvi və dini hakimiyyətin bölünməməsi, bir şəxsin qismində dünyəvi və dini təbəqələrin nümayəndəsinin birləşdirilməsi prinsiplərini qəbul edir. Bu dövlətdə, mütəfəkkirin göstərdiyi kimi, din – əsas, dövlət isə onun dayağıdır. İdeal dövlət - şəhərin mərkəzi ideyasını mənəvi-siyasi dəyər kimi ədalət ideyası təşkil edir (13, 25).

N.Tusi həmçinin bu dövlətin idarə olunması, təkmilləşdirilməsinə dair müxtəlif funksiyaları, onları yerinə yetirməli olan orqanları da müəyyən edir, ideal dövlətə qarşı şər dövlətin üç tipini qoyur: cəhalətli, şərəfsiz və yanılan dövlətləri. O, eləcə də dövlət idarəçiliyinin özünəməxsus ayrı-ayrı strukturlarının və vəzifəli şəxslərin sxemini yaratmış, lakin onlar arasında dəqiq fərqləri göstərməmişdir. Bu halda idarəetmə strukturu aşağıdakı iyerarxiya ilə təqdim

olunur: müdriklər; maarifçilər, həmçinin dini maarifçilər; keşikçilər; ictimai qayda-qanunun nəzarətçiləri, maliyyəçilər (7, 39**)**.

Mütəfəkkirin fikrincə, dövlət qanunsuz mövcud ola bilməz, başqa sözlə, dövlət qanun üzərində durur.

N.Tusi göstərirdi ki, ölkəyə rəhbərlik etmək istəyən adamın yeddi xüsusiyyəti olmalıdır: atalıq, alicənablıq, mətinlik, kişilik əzmi, səbirli olmaq, var-dövlət sahibi olmaq ( bu xalqın malına tamah salmamaq üçün lazımdır), sadiq və işgüzar köməkçilərə malik olmaq. Yalnız bu göstərilənlər olarsa , dövlətin başçısı ölkəni düzgün idarə edə bilər (7, 42-43**)**.

N.Tusinin «Siyasət» anlayışına yanaşmasının təhlili onun siyasətə aşağıdakı təsnifat formalarını verdiyini göstərir: dövlət siyasəti, hərbi siyasət, dini siyasət, daxili siyasət. Bu halda o, dövlət siyasətinə başlıca yer ayırır və onu «siyasətlərin siyasəti» adlandırır. Tusi siyasəti bir elm hesab edir və özünün dövlət nəzəriyyəsində bu elmin dövlət idarəçiliyində tətbiqinə çalışır. Burada siyasət təkcə öz çərçivəsində qalmır, etika sahəsinə keçir. Tusinin anlamında siyasət və etika qarşılıqlı əlaqədədir, bunun əsasında mütəfəkkir «siyasi ədalət» anlayışını işlədir (13, 34).

Böyük mütəfəkkir siyasətin aşağıdakı növlərini göstərir:

- fəzilətli siyasət, buna imamət də deyilir. Belə siyasətin məqsədi xalqı kamilləşdirmək, nəticəsi isə səadətə çatdırmaqdır;
- naqis (nöqsanlı) siyasət, buna zorakılıq da deyilir. Belə siyasətin məqsədi xalqı qul halına salmaq, nəticəsi isə bədbəxtlik olar (12, 42**)**.

Qeyd etmək lazımdır ki, N.Tusi dövlətlərin xalq kütlələrinin taleyini yaxşılaşdırmaq məqsədi güdən müxtəlif formalarını və variantlarını təklif etməklə mütləq monarxiya müdafiəçisi mövqeyində qalmışdır. İdeal dövlətə mütləq monarx rəhbərlik edir, buna uyğun layiqli insan olmadıqda, rəhbər funksiyasını «Ali Qanunvericilik Şurası» yerinə yetirir (13, 25).

Siyasətin elm və sənət, məharət kimi tanınması bəzən bu sənətin və elmin insanların əksəriyyəti üçün əlçatmaz olması barədə, bir istedad kimi siyasi fəaliyyət və ədalətli, müdrik hökmdarın istisna rolu haqqında mülahizələrlə müşayiət olunurdu. Mütəfəkkirlər hakimiyyətə ədalətli, ağıllı və maarifli hökmdarların gəlməsinə ümid edirdilər. Belə ki, Xaqani Şirvani hesab edirdi ki, xalqın yoxsul vəziyyətini ədalətli hökmdar yaxşılaşdıra bilər. Lakin mövcud monarxiya quruluşu Xaqaniyə təbii gəlirdi və o, başqa siyasi quruluşu digər formalı dövləti təsəvvür etmirdi (13, 54).

Azərbaycan fəlsəfi-siyasi fikrinə humanist - mütəfəkkir kimi daxil olmuş Məhəmməd Füzuli də Azərbaycan hökmdarlarının şəxsində müharibələrin qarşısını ala bilən qüvvəni görürdü. Onun fikrincə, müdrik hökmdar, onun rəhbərlik etdiyi dövlət müharibəyə gedən yolun qarşısını kəsə bilər. Füzuli sülhə çağırırdı, o sülhün təkcə xalqa deyil, həm də hökmdarların özləri üçün də üstünlüklərindən danışırdı. O, zorakılığın istənilən formasına birmənalı şəkildə tənqidi yanaşırdı və istismarın istənilən formada təzahürünü, məzəmmət edirdi, pisləyirdi. Ancaq bu, feodal quruluşunun tənqidi yox, hər saat rast

gəldiyi zorakılığın tənqidi idi. Fikrimizcə Füzulinin işıqlandırılması və qiymətləndirməsində yer tutan humanist əxlaqın, eləcə də asketizm və pessimizm prinsiplərinin təbliğini iki planda nəzərdən keçirmək olar: mütəfəkkirin yaşadığı cəmiyyətin mənəvi prinsiplərinin onun tərəfindən obyektiv-realist dərk edilməsi, əks etdirilməsi, qiymətləndirilməsi planında və mistik sufizm fəlsəfəsi kontekstində (14, 114)

Qeyd etmək lazımdır ki, keçmiş dövr mütəfəkkirlərinin konsepsiyalarında siyasətin optimallığı problemi köhnə baxışlar sisteminə yeni ideyaların daxil edilməsi, mühafizəkar siyasi proqramın əsaslandırılması və modernləşdirilməsi vəzifəsinə tabe etdirməklə həll edilirdi.

Siyasi fikrin real tarixi həmişə sosial qüvvələrin kəskin mübarizəsi sahəsi olmuşdur. Burada başlıca stimul dövlətin mövcudluğu səbəblərini və inkişaf perspektivlərinin dərk edilməsi yox, dövləti, dövlət siyasətini onu görmək istədiyin kimi təqdim etmək cəhdi, növbəti tarixi vəzifənin həllinə təsir etmək cəhdi, yaxud mövcud olanın qorunması ilə bağlı ənənəyə söykənmək istəyi idi.

XVI əsrin sonu – XVII əsrin əvvəllərinin abidəsi olan «Koroğlu» dastanında xalq kütlələrinin yeni cəmiyyət, ictimai münasibətlər haqqında arzuları ilə bərabər dövrün ziddiyyətləri də açılıb göstərilir. «Koroğlu»da siyasətin optimallığını şərtləndirən bir sıra problemlərə – cəmiyyətdə şəxsiyyət, şəxsiyyət və xalqın qarşılıqlı münasibətləri, xalqın kütləvi hərəkatlara münasibəti problemlərinə toxunulur (13, 16).

Azərbaycanın bir çox folklor nümunələrində («Lətif şah», «Şah İsmayıl», «Məlik çoban» və s.) bəzi dövlətçilik müddəalarının primitiv olmasına baxmayaraq onlarda şahın xalqın qüvvəsi ilə devrilməsi, xalq hakimiyyətinin qurulmasının mümkünlüyü və reallığı barədə, hökmdarların seçkisi qaydası haqqında və s. ideyalar irəli sürülür. Onlarda dövlət forması, ictimai quruluş barədə yeni ideyalar olmasa da, taxtıtacın irsiliyi prinsipi qorunub saxlanılsa da, lakin burada ictimai həyatın «demokratikləşməsi» tendensiyası güclüdür, primitiv demokratiya ideyaları irəli sürülür (13, 18).

Azərbaycan tarixinin sonrakı dövrü – XVIII əsrdən XIX əsrin ortalarınadək olan dövr – regionda mərkəzdənqaçma proseslərinin güclənməsi və Azərbaycan ərazisindəki dövlət birləşmələrinin əlaqələrinin zəifləməsi ilə səciyyələnirdi. Həmin dövrdə həm də dövlət və siyasətin hakimiyyətinin dini determinasiyası getdikcə daha çox əhəmiyyət kəsb etməyə başlayırdı.

XIX əsrdə baş verən ideoloji proseslər mütəxəssisləri siyasi yönümün dəyişməsi prosesinə həmçinin din və siyasətin nisbəti probleminə münasibətlərinə yenidən baxmağa məcbur etmişdir. Bu dövrdə bir çox mütəfəkkirlərin həmin problemlə bağlı öz baxışlarını onların müasiri olan dünyanın siyasi təkamülü tələbləri ilə razılaşdırmaq, dinin daimi olaraq siyasi dəyişikliklərə uyğunlaşdırılması prosesini əsaslı şəkildə işıqlandırmaq cəhdləri açıq görünür. Bu elə bir dövr idi ki, dinin hökumət tərəfindən dəstəklənən tərifi, şərhi, izahı artıq qəbuledilməz olmuşdur (13,32).

Azərbaycan fəlsəfi-siyasi fikrində din və siyasət probleminə ilk müraciət edənlərdən biri Mirzə Kazım bəy olmuşdur. Onun görkəmli əsərləri olan «Müridlik və Şamil» və «Bab və babilər»də təkcə din və siyasət problemlərinin deyil, həm də Azərbaycanın bütün siyasi fikir tarixinin problemlərinin öyrənilməsinə əhəmiyyətli töhfə olmuşdur. Böyük siyasi traktat olan «Müridilik və Şamil» əsərində M.Kazım bəy din və siyasətin qarşılıqlı əlaqələrini geniş tədqiq edir, Qafqaz dağlılarının dini pərdə altında irəli sürdüyü tələbləri nəzərdən keçirir (13, 135).

M.Kazım bəyin qarşısında duran vəzifənin mürəkkəbliyi ondan ibarət idi ki, o, özünün elmi fəaliyyətində ilk dəfə olaraq siyasi mübarizənin dini bayraq altında getdiyi bir tarixi hadisə ilə sıx şəkildə üzləşmişdi. Həmin dövrdə Dağlı və müridlik hərəkatının digər tədqiqatçılarından fərqli olaraq M.Kazım bəy bu hərəkatın təkcə müsəlman fanatizmini deyil, siyasi motivlərini də nəzərdən keçirə bilmişdir. O, hərəkatın mahiyyətini və siyasi təyinatını arqumentləşdirilmiş şəkildə açıb göstərə bilmiş və dini müridlik ideologiyasına söykənən hərbi-teokratik dövlətin təhlilini vermişdir. Mütəfəkkirin düzgün müəyyən etdiyi kimi, şəriətin dini şüarları müəyyən məqamədək xalq kütlələrinin siyasi tələblərlə mübarizəyə səfərbər edilməsi işində müsbət rol oynaya bilir. M.Kazım bəy Şamilin digər bir xüsusiyyətini də müəyyən edə bilmişdir. Bu onun dünyəvi və mənəvi hakimiyyətləri birləşdirməsi, islam dininin və dövlət siyasətinin ayrılmazlığı barədə ehkamları geniş reklam etməsi ilə bağlı idi. Şamil həmçinin təbliğ edirdi ki, islamın borcu siyasət üzərində nəzarət etməkdir. Yəni din siyasətdən yüksəkdir. Burada, M.Kazım bəyin müəyyən etdiyi kimi, Şamil var qüvvəsi ilə dövlətin sosial-siyasi strukturunda müsəlman ruhanilərinin yerini müəyyənləşdirməyə çalışırdı. Beləliklə, bir tərəfdən, din siyasiləşir, digər tərəfdən isə siyasət dini bayraq altında gizlənir. Belə bir qarşılıqlı əlaqənin güclənməsi islamda ruhani və dünyəvi hakimiyyətin birləşməsinə səbəb olur.

M.Kazım bəy «Bab və babilər» adlı digər siyasi traktatında islamçılıq mövqeyindən çıxış edərək cəmiyyətin təkamüllü inkişafında islam şüurunun həlledici rolundan yazırdı. Mütəfəkkir geniş xalq kütlələri hərəkatını islamdan kənarda təsəvvür etmirdi. Babilər hərəkatı dövründən götürdüyü konkret faktlar əsasında o, islamın mütərəqqiliyini sübut etməyə can atır, çünki məhz islam İran monarxiyasının əsaslarının dağılmasına səbəb olmuşdur (12, 136).

M.Kazım bəy özünün bu əsərində mülayim, düşünülmüş monarxiya şəklində islahatlar haqqında ideyanı irəli sürür. İslamın tənqidi ilə yanaşı mütəfəkkir digər əsərlərində olduğu kimi, bu əsərində də babizmi tədqiq etmiş və öz müasirləri olan tədqiqatçılara göstərə bilmişdi ki, islam ayrı-ayrı hallarda ictimai həyatın gedişinə fəal surətdə təsir etmək qabiliyyətinə malikdir. Onun fikrincə, babilər islama məcburiyyət qarşısında yox, şəxsi mənəvi tələbata görə etiqad edir və onu özlərinin istədiyi kimi modernləşdirirlər. Bu halda mütəfəkkir xalqın əzablarına görə məsuliyyəti islamın üzərinə qoymur, lakin hesab edirdi ki, islamın səyləri düzgün məcraya istiqamətləndirilərsə, o xalqın azad edilməsi işində müsbət rol oynaya bilər (12, 139).

Siyasətin optimallığı probleminin həllində birmənalı rol oynamayan din və siyasət münasibətləri nisbəti bu iki fenomenin nisbətinin, qarşılıqlı əlaqələrinin ayrı-ayrı aspektləri Azərbaycanın tanınmış mütəfəkkiri, inqilabçı-demokrat M.F.Axundovun da diqqətini cəlb etmişdir. Onun bu məsələlərə dair baxışlarının səciyyəvi xüsusiyyəti islam dininin siyasi ölçülərlə islahatı ideyasının irəli sürülməsindədir. Bununla əlaqədar M.Axundov yazırdı: «İndiki dövrün və mədəniyyətin tələblərindən göründüyü kimi, islamçılığın bəşəriyyətdə hər iki cinsin azadlığı və bərabərliyini müəyyən edən, Şərq despotizmini müdrik siyasi müəssisələrlə mülayimləşdirən islahata və sivilləşməyə ehtiyacı var». Bu zaman mütəfəkkir onu da qeyd edir ki, siyasət-dövlət idarəçiliyi və ölkənin idarə olunması ilə bağlı, dövlətin və ölkənin maraqları və səlahiyyətlərini nəzərə alan bütün işlər belə adlanır, həmçinin onlar haqqında elmdə. M.F.Axundov öz dəyərinə görə XVIII əsr fransız maarifçilərinin tanınmış fəlsəfi əsərləri ilə bir sıraya qoyulan «Kəmal-ud-Dövlə məktubları» adlı fəlsəfi traktatında (1863-1865) mövcud quruluşu pisləyərək Yaxın Şərqin ali feodal hökmdarlarına öz ölkələrinin dövlət sistemində kökündən yenidənqurma aparmağı və konstitusiyalı monarxiya qurmağı təkid edirdi. O yazırdı: «... dövlət quruluşu ingilis dövlətçiliyini özündə əks etdirən başlanğıca əsaslanmalıdır, yəni konstitusiyalı dövlət quruluşu olmalıdır, qanuni əsaslarda olmalıdır. Yalnız bu halda dövlət quruluşu uzun müddət mövcud ola bilər və xalq tam qəlbi ilə ona can atar ki, padşahın hakimiyyəti möhkəm olsun» (9, 7).

Feodal cəmiyyətinin kökündən yenidən qurulması, Yaxın Şərq ölkələrində onların iqtisadi, siyasi, sosial və mədəni inkişafına səbəb olan və xalqın geniş təbəqələrinin ən mühüm maraqlarına cavab verən yeni dövlət quruluşunun qurulması, sonrakı illərdə də M.Axundovun maraq dairəsində olmuşdur. Uzun düşüncələrdən və Qərbi Avropanın inqilabi hərəkatı tarixi ilə dərin tanışlıqdan sonra o, XIX əsrin 70-ci illərində belə bir nəticəyə gəlir ki, mövcud quruluşu kökündən sülh yolu ilə dəyişmək olmaz və onu yalnız zorakı yolla – xalq kütlələrinin silahlı üsyanı yolu ilə devirmək mümkündür.

Beləliklə də M.F.Axundov xalqı feodal quruluşuna qarşı silahlı mübarizəyə və demokratik respublika qurmağa səsləməklə Azərbaycanda və Yaxın Şərq ölkələrində inqilabi-demokratik ideologiyanın əsaslarını qoymuşdur. Bu konsepsiya onun «Yek kəlmənin tənqidi» adlı məqaləsində də (1875) öz ifadəsini tapmışdır. Burada həmçinin XIX əsrin 70-ci illərində İranda dinin və siyasətin qarşılıqlı təsirinə dair bir necə vacib tövsiyələr də vermişdir. Belə ki, M.Axundov konstitusiyanın əsasına islamın müddəalarını qoymağı təklif edən Mirzə Yusif xanın teokratik dövlətin təşkili haqqında ideyasına, həmçinin kəskin şəkildə dini ehkamlara söykənərək İranda fransız tipli respublika yaratmaq cəhdlərinə qarşı çıxmışdır (8, 209).

Ümumiyyətlə, təhlil göstərir ki, din və siyasətin qarşılıqlı əlaqələri, qarşılıqlı təsiri və dəstəyi problemi müxtəlif dövrlərin və zamanın alimlərinin, mütəfəkkirlərinin diqqətini həmişə cəlb etmiş və bu iki fenomenin qarşılıqlı əlaqələri müxtəlif forma daşıyaraq, dövrün tələbləri nöqteyi-nəzərindən işıq-

landırılmışdır. Doğrudur, tarixdə din amilinin bəzən siyasətdə aparıcı rol oynadığı səhnələr az olmamışdır. Lakin qeyd etmək lazımdır ki, din bəzən ideologiyaya çevrilərək siyasətdə aparıcı rol oynasa da o siyasətdə müstəqil sosial subyekt kimi deyil, siyasətin formalaşmasında iştirak edən şəxslərin dünyagörüşü vasitəsilə təsir göstərə bilər (5, 35). Bu səbəbdən siyasətdə qalıcı ola bilməz.

Azərbaycanda belə vəziyyət, yəni dinə söykənən siyasi hakimiyyətin təsis edilməsinə neqativ yanaşma Azərbaycan Demokratik Respublikasının dövlət strukturlarının yaradılmasınadək davam etmişdir. Buna misal kimi parlament idarə üsulunu qəbul etmiş Şərqdə ilk demokratik dövlətin hakimiyyət ideologiyasının formalaşmasını göstərmək olar.

Müasir Azərbaycan artıq öz strateji rolunu seçmişdir, bu gün Respublikamız müstəqil, demokratik, hüquqi, dünyəvi dövlətdir (1).

Son onillikdə Azərbaycan cəmiyyətinin bütün səyləri ölkədə qanunun aliliyi, formalaşan vətəndaş cəmiyyəti ilə əməkdaşlıq kimi başlıca prinsiplərə əsaslanan dövlətin qurulmasına yönəlmişdir. Bu, məhz həmin idealdır ki, millətin bütün fikri, məramı ona nail olmağa istiqamətlənmişdir. Lakin ideallar nə qədər dəyişsə də Azərbaycan dövlətinin müstəqilliyinin təmin edilməsi həmişə Azərbaycan xalqının ali idealı olmuşdur. Belə bir müstəqil dövlətçiliyin təşəkkülü isə yalnız ümummilli lider Heydər Əliyevin səyləri və dahi şəxsiyyəti sayəsində mümkün olmuşdur. Onun liderlik təcrübəsi və intellektual potensialı nəinki çox mürəkkəb və kəşməkəşli şəraitdə dövlətçiliyimizi yaratdı, həm də bizim hamımıza özümüzü dünya birliyinin bərabərhüquqlu üzvləri kimi hiss etməyə imkan verdi (6, 10-11).

Beləliklə, dövlət haqqında istənilən təlim qanunauyğun olaraq öz dövrünün siyasi-hüquqi gerçəkliyi nəzərə alınmaqla qurulur və bu zaman hər bir dövr üçün siyasətin optimallığı probleminin özünəməxsus həlli üsulu səciyyəvidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Elm, 2002, 68 c.
2. Əliyev Z.F. N.Tusinin siyasi baxışlarının bəzi cəhətləri, Bakı: Elm, 1994, 182 c.
3. Əlisa Nicat.Dünya filosofları. Bakı: Sabah, 1995, 540 s.
4. Gəncəvi N.Xəmsə. Bakı: Gənclik,1981, 276 s.
5. Xəlilov S. Fəlsəfədən siyasətə. Bakı: Azərbaycan Universiteti, 1998, 328 s.
6. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI – YNE, 2005, 584 s.
7. Tusi N.Əxlaqi-Nasiri. Bakı: Elm, 1989.
8. Ахундов М.Ф. Избранные философские произведения. М.: Соцекгиз, 1962, с.360.
9. Ахундов М.Ф. Избранные произведения. Б.: Азернешр, 1987, с.294.
10. Общая и прикладная политология / Учебное пособие под. ред. В.И.Жукова, Б.И.Краснова). М.:МГСУ, Союз ,1997 , 992 с.
11. Сорокин П. Дальняя дорога. М.: Терра, 1992, 265 с.
12. Рзаев А.К. Насирэддин Туси. Политико-правовые воззрения. Баку: Элм,1983, 187с.
13. Рзакулизаде С.Д. Общественно-политические и философские взгляды Хагани Ширвани. Баку: АН Азерб., 1962, 110 с.
14. Философская энциклопедия.Т. IV, М., 1967, 552 с.

## ПРОБЛЕМА ОПТИМАЛЬНОСТИ ПОЛИТИКИ В ФИЛОСОФСКО-ПОЛИТИЧЕСКОЙ МЫСЛИ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

**Х.С.ИБРАГИМОВА**

### РЕЗЮМЕ

Формирование и осуществление политики обусловлено как общими, так специфически национальными факторами. С этой точки зрения, исследование подходов к проблеме политики и её оптимальности в философско-политической мысли нашего народа, приобретает особую актуальность для Азербайджана в условиях национальной независимости. В статье анализируются основные положения и учения о политике и её оптимальности, выдвинутые в истории философско-политической мысли Азербайджана. При рассмотрении взглядов, изложенных в памятнике древнего мира «Авеста», идей, касательно проблемы рационализации политики средневековых азербайджанских мыслителей Н.Гянджеви, Н.Туси, М.Физули, а так же выдающихся просветителей 18-19 веков М.Кязымбека и М.Ахундова автор выражает свою позицию по отношению к ним.

**Ключевые слова:** политика, рациональность и оптимальность политики, государство, власть, демократия, национальный менталитет

## THE PROBLEM OF OPTIMALITY OF POLICY IN PHILOSOPHICAL AND POLITICAL THOUGHT OF THE AZERBAIJANI PEOPLE

**Kh.S.IBRAHIMOVA**

### SUMMARY

Formation and implementation of policy is stipulated by general, and specifically by national factors. From this point of view, research of approaches to the problem of policy and its optimality in philosophical and political thought of our people gets a special urgency for Azerbaijan in the conditions of national independence. The article analyzes basic provisions and doctrines about policy and its optimality, put forward in the history of philosophical and political thought of Azerbaijan. By consideration of the views stated in the monument of the ancient world "Avesta", ideas of medieval Azerbaijani thinkers such as N.Ganjavi, N.Tusi, M.Fizuli and outstanding educators of XVIII-XIX centuries, M.Kyazymbek and M.Akhundov, the author expresses the position in relation to them.

**Key words:** policy, policy rationality and optimality, state, power, democracy, national mentality